Türkiye Diyanet Vakfı
Kütüphanesi
İslâm Araştırmaları Merkezi

D.2632

BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 12 SENTYABR (EYLÜL) 2009

# HƏDİSLƏRİN MƏTN BAXIMINDAN TƏHLİLİ MƏSƏLƏSİ

i.e.n. Narniq ABUZƏROV*

Hədisin sanadi onun səhihliyinin tayinedici ünsürüdür. Hadisi ravayat edan ravinin etibarlı, siqa va naql etdiyinin mahiyyatini bilmasi, o hədisin sahhati iiqiin əsas şərttir. Yalan danışan va xalq nəzdində etibarı olmayan şəxslərin naql etdiyi hadislara etibar edilməmişdir.

Islam Peyğəmbərinin (s.a.s.) vəfatından sonra sahabalar hadislarin səhhətini tasbit etmak iiqiin farqli metodlardan istifadə etmişlər. Masalan hz. Əbu Bəkir va hz. Omar kimi sahabalar bilmadiklarin hədisin səhih olduğunu tasbit etmak iiqiin onu ravayat edan səhabənin şahid gətirməsini[1] hz. Əli isa and içməsini şərt qoşmuşdur.[2] Hz. Aişənin digar sahabalarin ravayat etdikləri sahv va ya əksik hadislar barasinda etdiyi açıqlamalar isa miistaqil bir asarin mövzusu olmuşdur.[3]

Sahabalarin hadislara qarşı gostardiklari bu hassas davranış Tabiun nasli tərəfindən davam etdirilmişdir. Belə ki, Tabiun va Ətbaut-Tabiin nasli da isnadı, hadislarin qorunması iiqiin an önəmli amil saymışlar.[4] Əvzai (v. 1571773): "Elmin ortadan qalxmasi, isnadm yox olmasına bağlıdır" deyir.[5] Şu`bə isnadın ahamiyyatini bu sozlarla ifada edir: "İsnad möminin silahıdır. Yanında silah olmayan na ila döyüşər?"[6] Abdullah b. Miibaraka (v.1811797) gora isnad dindandir va o olmasa insanlar istədiyini söyləyərdi.[7] Ona gora

* BDU İlahiyyat Fakültəsinin müəllimi
[1] Müslim, "İsti`zan" 5.
[2] İbn Həcər, "Təhzib" I, 267-268.
[3] Bədruddin əz-Zərkeşi hz. Aişənin hadislar haqqında digar sahabalara ünvanladığı tənqidləri "əl-İcabə li İradi Mə`stədrəkəthu Aiqa aləs-Səhabə" adlı müstəqil bir asarda cam etmişdir. Beyrut 1970.
[4] Salahattin Polat, Hadis Araştırmaları, s. 24, Istanbul 2003
[5] Accac, "əs-Sunnətu qablət-tədvin", Qahirə 1963.
[6] al-Xatib, *Şərəfu Əshabil-hədis*, Ankara 1972, s. 42.
[7] Ramehurmuzi, "əl-Muhaddisul-fasil" Beyrut 1971, s. 209

dinini isnadsız alan insan samaya nərdivansız çıxan kimsəyə bənzəyir.[8] Imam Şafi (v. 2041819): "İsnadsız hədis tələb edan kimsə geca qaranlığında odun toplayan insan kimidir. Bu insan farqinda olmadan zaharli bir ilanı odun sayıb yerdan götürər."[9]

Yuxarıdakı iqtibaslardan göründüyü kimi ilk hicri asrlarda yaşayan mühəddislər isnadın onamli olduğunu vurğulamış va hadisi ilk mənbəyindən almaq üçün hədis ədəbiyyatında "rihlə" kimi məşhur olan hədis səfərlərinə çıxmışlar. Belə ki, Əbul-Aliyə (v.90/708): "Biz Basrada Rəsulullahın əshabından bəzi rəvayətləri eşidirdik. Lakin bu ravayatlari gedib mahz o səhabələrin dilindən eşitməyənə qadar narahat olurduq."[10]

Mütəqaddimun mühəddisləri yalnız hədisin əhəmiyyətini bir mənalı şəkildə ifada etməklə kifayətlənməmiş, bununla barabar ravilərin hədis rəvayəti yoniindaki qabiliyyatlarini olqa bilacak terminləri da icad etmişlər.

Hədisin mənbəyini təsbit edarkan hadisqilar hassas qaydalar qoymuşlar. Belə ki, xəbəri naql edanlarin etibarlı va hafizəsi güclü, sanad isa müttəsil olmadığı miiddatca onu qabul etməmişlər. Bu barada Həsən b. Salih (h.160/m.777) maraqlı bir qeyd düşür: "Biz har hansı bir şəxsin hadisini naql etdiyimiz zaman onun haqqlnda o qadar daqiq tadqiqat aparardıq ki, bilgi aldığımız insanlar: "Hərhalda bu adam sizin kürəkəniniz olacaq. Ela buna görə da onun haqqlnda cox malumat toplayırsınız" deyirdilər."[11] Həsən b. Salihin bu ifadələri hicri ikinci asrda hədisin ilk manbayi kimi isnadın, başqa bir sözlə ravilərin qabul edildiyini gostarir.

Əlbəttə ravilərin, hədisin ilk manbayi olaraq qabul edilmasi anlayışı, onların tadqiq edilməsinin zərurətini ortaya çıxarırdı. Bu zarurata əsasən ravilarin ravayat qabiliyyətlərini ifada edan *siqa, şeyx, daif, mətruk* va *kəzzab* kimi yüzlərlə istilah meydana gəldi. Ravilərin haqqlnda istifada edilan bu istilahlar subyektiv xarakter daşıyırdı. Lakin har hansı bir ravi haqqında bir çox carh va ta`dil alimi eyni mənfi ifadani va ya termini istifada etdikdə artıq onun rəvayətlərinə şübhə nazarila baxılırdı. Masalan, "كذبوه" (kazzabuhu)

[8] Müslim, Müqəddimə, I, 15.
[9] Münavi, Feyzul-Qədir. Məkkə 1998, I, 433.
[10] əl-Xatib, əl-Kifayə, Qahirə (t.y.) s. 402-3.
[11] Kifayə, s. 155.

carh ifadasi olub bir ravinin miihaddislarin aksariyyatina gora hədis uydurmaqda ittiham edildiyini gostarir. [12]

Qeyd edildiyi kimi icad edilan carh va tadil terminlari subyektef xarakter daşıdığı üçün har hansı bir miihaddisa gora *siqa* (ravayatlari etibarli) sayilan bir ravi digar miihaddisa gora daif (ravayatlari etibarsiz) hesab edilir. Belə hallarda qeyd edilan ravi *muxtələfun aleyh* (haqqında mubahisa edilan) sayılır via onun ravayatlari şahid hədislə dastaklanana qadar zaif sayılırdı.

"Muxtələfun aleyh" (mubahisali) hesab edilan ravinin va ya ravilarin naql etdiyi hadislarin sahhati bir neqa terminlə ifada edilir. Masalan sözü gedan ravini *siqa* sayan miihaddislara gora onun ravayat etdiyi hədis *sahih,* zaif sayan hədis alimlərinə gora isa *zəif*dir. Xüsusilə "mövzu" (uydurma) sayılan ravayatlarin cam edildiyi asarlara nazar salsaq har hansı bir ravayat haqqında isnada asaslanan bir neqa sahihlik hökmünün verildiyina şahid olarıq.[13] Yalnız isnada asaslanaraq bazi hadislar haqqında bir neqa sahihlik hökmünün ifada edilmasi, isnadın manba dayarini müzakirə obyektinə çevirir. Bu sababla mubahisali hadislarin sanad yönümlü tahlili ila yanaşı mətn baxımından tahlili da əhəmiyyət kasb edir. Ela buna gora da bazi muhaddislar hədis mətninin sahhati üçün sanadinin sahih olmasının kifayat etmədiyini vurğulamışlar. Hətta Hakim an-Nisaburi (v. 40511014) "Marifətu Ulumil-Hadis" adlı əsərinin 29-cu qismini bu masalaya ayırmış va isnadi siqa ravilardan meydana galdiyi halda mətni sahih olmayan hadislara omak vermişdir.

Islam həyatın har bir sahəsini ahata etdiyi üçün onun Peyğəmbərinin (s.a.s.) hadislari da hayatm har bir sahasi ilə əlaqədardır. Yəni isnaddan farqli olaraq hədis mətinləri yeknasaq xüsusiyyət kasb etmir. Başqa bir sozla, isnada asaslanaraq hadislarin səhihliyi tasbit edildiyi zaman ravinin etibarli, doğru-sözlü va naql etdiyi hədisin mahiyyatini bilmasi kifayatdir. Lakin mətnə asaslanan sahihlik tasbitinda isa müxtəlif bilgi va dalillara muraciat etmak zarurati ortaya çıxır.

---

[12] Geniş məlumat üçün baxın: Ahmet Yucel, "Hadis Istılahlarının Doğuşu ve Gelişimi" s. Istanbul 1996,133-143

[13] İbnul-Cevzi, *Kitabul-mevzuat mina'l-əhâdîsi'l-merfû'ât*, Riyad, 1997; Suyûti, əl-Ləâli'l-masnûa fî əhâdîsi'l-mevdû'a, Misir (t.y).

Əsbabi-vürud adlanan bu bilgi va dəlilləri bazi hədis mətnlərinin özü ahata etdiyi kimi[14], bunlara mətn xaricində da rastlamaq mümkündür. Mətn xaricindəki dalillarin təsbitində *tarixi faktlar* (sosial va siyasi), *cahiliyyət dovriinin adət va ənənələri, Ərəb ədəbiyyatı, hz. Peyğəmbərin yaşadığı dövrdəki hadisalarin xronologiyası, ravi səhabələrin müsəlman olma ardıcıllığı* (xüsusilə ibadət ilə əlaqədar olan miibahisali hədislərin təhlilində) va *Qzir'an ayalarinin nazil olma səbəbləri* (asbabi-niizul) va s. kimi manbalardan faydalanmaq mümkündür.

Yuxanda qeyd edilan manbalardan tarix kitabları xüsusi ahamiyyat daşıyır. Belə ki, bu mövzuya işıq salacağı ümidi ila tarixi manbalara asaslanaraq isnadı mübahisəli olan iki farqli hədisin mətn tahlilina dair nümunə vermək mümkündür. Bu hadislardan biri *inak əti* digəri isa *fəluzəc* adlı şirniyyat növü ila əlaqədardır.

Hakim ən-Nisaburi "əl-Müstədrək" adlı asarinda Abdullah b. Məs`uddan belə bir ravayat naql edir: "Rəsulullah (s.a.s.) buyurdu ki, inəyin südündən va yağından istifada edin, bunlarda şəfa vardır.[15] Onun ətini isə yeməyin çünki ətində xastalik vardır."[16] Hakim bu hədisin səhih oldugunu qeyd etdikdan sonra Buxari və Müslimin şərtlərinə uygun oldugunu, lakin onların bu hadisi almadığını alava etmişdir. Bu hadisi yalnız Hakim deyil, ondan awal yaşamış Taberani də ravayat etmişdir. Təbəraninin "əl-Mu`cəmul-Kabir" adlı əsərindəki bu rəvayət Muleyka binti Amr tərəfindən naql edilir.[17] Har iki ravayat inək ətində xastalik oldugunu vurğulayır. Bu rəvayətləri isnad baxımından təhlil edan muasir hədis alimi Nasruddin Albani bu ravayatlarin bir birini şahid kimi dəstəklədiyini va səhih oldugunu qeyd edir.[18]

Digar bir hədis alimi Məhəmməd Qəzzali isə "əs-Sünnə an-nabaviyya" adlı asarinda "inək ətində xastalik vardır" hadisi haqqlnda belə deyir: "Məhəmməd Nəsruddin Albani böyük bir hədis alimi olmasına baxmayaraq

[14] Ətraflı məlumat uçün baxın İbn Həmzə, *əl-Bəyan vət-Tarif fi əsbabi vürudil-hadisiş-şərif*, Qahirə 1973"

[15] Bu hədisin ilk yarısı yəni inəyin südünün faydalı va bir çox bitkidən hazırlandığı uçun şəfalı olduğu xususunu Hakimdən başqa hədis alimləri da oz əsərlərində qeyd etmişlər Təbərani, *Müsnəduş-Şamiyyin*, II, 293, Beyrut 1989, *əl-Mu`cəmul-Kəbir*, VIII, 167, Beyrut 1984

[16] Hakim ən-Nisaburi, *əl-Müstədrək aləs-Sahiheyn*, hədis no 8341, Haydarabad 1915,

[17] Təbərani, *əl-Mu`cəmul-Kəbir*, XVIII, 218

[18] Albani, "əs-Silsilətus-Sahiha" IV, 107 (hədis no 1533)

"İnək atinda xastalik vardır" hədisinin sahih oldugunu qeyd edir". Halbuki, Qur'ani-Karimi oxuyan va anlayan har kas bilir ki, bu hədisin heç bir dayari yoxdur. Çünki Allah Taala Ən`am va Hacc (Ən`am 61142-144, Hacc 22136) surələrində inak ətinin mubah / halal olduğunu va onu bir nemat kimi insanlara bağışladığını ifada edir. Bu taqdirda hansı xastalikdan bahs edila bilər?"[19]

"İnək atinda xastalik vardir" hadisi bazi Islam alimlari tarafindan tanqid edilmişdir. Halimi (v. 403/1012), Zərkeşi (v. 79411392) va Saxavi (v. 90211496) kimi alimlarin "İnək atinda xastalik vardır" hadisi ila alaqadar verdiyi bilgiya gora quraqlıq olan bir fasilda Hicaz bölgəsindəki bazi inəklərin ətləri yoluxucu xəstəliklərin manbayi olmuşdur. Ela bu sababa gora da fövqəladə bir hal kimi inak ətlərinin yeyilmasi muvaqqati olaraq Rəsulullah (s.a.s.) tarafindan qadağan edilmişdir.[20] Natica etibarila "İnək atinda xastalik vardır" hadisi muayyan bir vaxta aid olmuş va iddia edildiyi kimi Qur`anın hokmlarina zidd olmamaqla yanaşı xalq tababati baxımından ahamiyyat kasb edir. Digar tarafdan yuxarıdakı hədis ila alaqadar dalil kimi istifada edilən Ən`am va Hacc (Ən`am 61142-144, Hacc 22136) suralarinin yerinə insanın öz-özünü təhlükəyə atmaması, tamiz va sağlam qidaların yeyilmasi ila alaqadar ayalarin vurğulanması məqsədəuyğun olardı.[21]

"İnək atinda xastalik vardır" hadisi matn baxımından Qur'an ayalarina zidd olmaqla yanaşı hz. Peyğəmbərin bu movzudalu tətbiqatına da ziddir. Belə ki, Rəsulullahın (s.a.s.) oz xanımları adına inayi qurban kimi kəsdiyini ifada edan ravayatlar hədis manbalarinin aksariyyatinda movcuddur.[22] Natica etibarila Hakim an-Nisaburi va Nəsruddin Albani kimi alimlarin bu hədisin isnadma asaslanaraq "səhih" olduğunu ifada etmasina baxmayaraq ham Qur'an va hz. Peygambarin tatbiqati, ham da tarixi hadisalar va bəşəri təcrübə, onun matn nökteyi nazarindan zaif olduğunu va ya mutlaq bir hokm ifada etmayib, tarixin muayyan bir vaxtına aid olduğunu subut edir.

Movzu ila alaqadar ikinci hədis isa "faluzac" adlı şirniyyat növü haqqındadır. İbn Macənin Sünən`inin "Ət`imə" kitabında yer alan bu hədisin mətni İbn Abbasa istinad edilir. Belə ki, İbn Abbas bu şirniyyat növünü ilk

---

[19] Qəzzali "əs-Sünnə an-nabaviyya", s. 20
[20] Suyuti, "Durərul-Muntəsira fil-əhadisil-muştəhira" Qahirə 1960s. 23
[21] Zakariyya Gülər, "Hədis Problemləri" s. 102.
[22] Buxari, "Ğasl" 29; Müslim, 'Xacc" 17; Nəsai, "Təharət" 185.

dafa hz. Peygambardan eşitdiyi, onun da Cabrailden (a.s) egitdiyi naql edilir. Hədisin mətni beladir: "Cəbrail (a.s) hz. Peygambara (s.a.s.) dedi: "Sənin ümmətin üçün torpaqlar fəth edilacak, onlar bolluq va çox sərvət alda edacaklar va faluzac yeyacaklar. Rəsulullah (s.a.s.): "Faluzac nadir?" deya sorugmug. Cəbrail da: "Yağ va balm qarışığından alda edilir" demig. Hz. Peygambar (ümmətinin bu halma) ağlamış""[23]

Bu ravayat yalnız İbn Macənin "Sünən"ində deyil, İbn Əbu Asimin "əl-Əvali" adli asarinda da mövcutdur.[24] İbn Macənin mahz bu hədis üçün ayrı bir bab ayıraraq onu "Fəluzac" adlandırması, müəllifin bu şirniyyat növü haqqında məlümat vermak istadiyi təsəvvürünü yaradır. Lakin bu ravayat İbnul-Cəvzi tarafindan bir neçə əsasla uydurma hesab edilmişdir. İbnul-Cəvzinin sadaladığı bütün əsaslar rəvayətin isnadı ila alaqadardir. Bu ravayatin isnadını aşağıdakı kimi qeyd edarak İbnul-Cəvzinin dəlillərini sadalamaq mümkündür: (hədisin isnadı beladir:)

İsmâil b. Əyyâş→Muhammad b. Talhâ→Osman b. Yəhyâ→İbn Abbâs→Hz. Peyğəmbər.

1. İsmail b. Əyyâş zaif ravidir. Onun haqqında Əhməd b. Hənbəl belə deyir: "İsmail eşitdiyi har geyi naql edir". İbn Hibban isa onun qocalığında hafizəsinin zəiflədiyini va çox sahva yol verdiyini qeyd edir.[25]

2. Muhammad b. Talhâ, Yahyâ b. Main tarafindan zaif hesab edilmişdir.

3. Əvul-Fəth əl-Əzdi isa: "Osman b. Yəhyânın İbn Abbasdan naql etdiyi ravayatlar etibara edilməməlidir" demişdir.[26]

Ibnul-Cəvzi, uydurma hesab etdiyi bu hədisin hz. Abbasdan sonrakı ilk üç ravisini carh va tadil alimlərinin raylarina əsaslanaraq zaif va batil hesab etdiyi halda onun mətni haqqmda har hansı fikri ifada etmamigdir.

İbnul-Cəvzinin "əl-Məvzuat" adlı asarina əsaslanaraq "əl-Ləalil-məsnua" adli bir kitab yazan Suyuti, yuxarıdakı hədisin əslində uydurma olmadığını qeyd etmişdir.[27] Bu ravayatin uydurma olmadığını sübut etmaya çalışan

[23] Ibn Macə, Ət'imə 46.
[24] İbn Əbu A s h, "əl-Əvali" Beyrut 1987, s. 44-45.
[25] İbnul-Cəvzi, "əl-Məvzuat", Riyad 1997, III, 166-167.
[26] İbnul-Cəvzi, "əl-Məvzuat", III, 166-167.
[27] Suyuti, "əl-Ləalil-Məsnua", Misir, (t.y.) II, 240.

Suyutinin izladiyi metod da mətn baxımından deyil, mahz isnada nokteyi nazarindadir. Süyutinin dəlilləri aşağıdakı kimidir:

1. Zahabi bu hədisin ravilarindan Osman b. Yahya haqqmda belə deyir: "Osman b. Yahya, İbn Abbasdan etdiyi ravayatlarda *saduq*dur[28]. Onun hədislərini isa yalnız Muhammad b. Talha ravayat etmişdir."[29]

2. Muhammad b. Talha, Yahya b. Main tarafindan zaif sayılmasına baxmayaraq o *saduq*dur. Çünki Şeyxan[30] oz asarlarinda onun ravayatlarina yer vermişdir.

İbnul-Cəvzinin yuxarıdakı hədisin ravisi Osman b. Yahya haqqmdalu qənaətinə İbn Həcər da belə itiraz edir: "Nəsainin Osman b. Yahya haqqındakı rayi miisbatdir va (Carh va tadil alimi) İbn Əbu Hatim, onun haqqında har hansı bir carh ifadasi istifadə etməmişdir" İbn Həcər oz sözünə "İbnul-Cəvzi onun hadisina uydurma demakla isabatli qərar verməmişdir"[31] deya davam etmişdir. İbnul-Cəvzi va Suyuti ilə yanaşı İbn Həcər da "fəluzəc" hadisi barəsindəki öz rəyini isnada asaslanaraq dila gətirmişdir.

Yuxarıdakı hədis belə düşünməyə imkan verir: "Fəluzəc" adlı şirniyyat növünü ilk dafa sahabalar hz. Peyğəmbərdən eşitmişlər.[32] Hz. Peygambar isa bunu ilk dafa Cabraildan (a.s) eşitmiş".

Ham Cahiliyyat, ham da hz. Peyğəmbərin dövrünə aid olan bilgilər yuxarıdakı nəticəni dəstəkləmir. Belə ki, İbn Macədən awal yaşayan ansab alimi İbn Həbib (v.245/860) Qureyş qəbiləsinin tarixinə hasr etdiyi "əl-Munəmmaq" adli asarinda "fəluzəc" adli bu şirniyyat növünü Məkkəyə gatiran ilk şəxsin Abdullah b. Cud'an olduğunu xabar verir.[33] Bu bilgini İbn Macənin miiasiri əl-Fakihi (v. 2751888) da "Əxbaru Makka" adli asarinda qeyd edir.[34] Abdullah b. Cud'an Cahiliyyat dövründə yaşamış va Qureyş

[28] *Saduq*-Dördüncü dərəcəli tadil kəlməsidir. Mənası:"Onun Ravayatlari zəbt xüsusiyyətini daşıyan ravilərin ravayatina uyğun olduğu təqdirdə motabar sayılır".

[29] Zahabi, "Mizan", Beyrut 1995, V, 75.

[30] Muhammad b. Talhanın rəvayətlərini yalnız Buxari va Muslim qeyd etmımiş, bununla yanaşı Tirmizi va Əbu Davudun "Siinan'larinda da onun rəvayətləri mövcuddur. (Baxın: Mizzi, "Təhzib" Beyrut 1985 XXV, 417)

[31] Ibn Həcər "Təhzibut-Təhzib", Beyrut 1991, IV, 103.

[32] İbn Abbas yuxarıdakı ravayatda eşitdim deyil, eşitdik kəlməsini (سمعنا) ifadə etmişdir.

[33] İbn Həbib, "al-Munammaq", Beyrut 1985, s. 372.

[34] əl-Fakihi, "Əxbaru Makka", Makka 1986, V, 196.

qəbiləsinin ən saxavatli şəxslərindən biri olmuş[35], Bəlazurinin verdiyi bilgiya görə Islam gəlmədən on il əvvəl ölmüşdür.[36]

Ərəb tarixçisi va adibi Əbul-Fərəc əl-İsfahani (v. 356/967) "əl-Əğani" adlı əsərində naql etdiyi bilgiya gora isə Abdullah b. Cud'an, tacir heyyati ila birlikdə Sasani hökmdarının qonağı olmuş va onun yanında *fəluzəc* adli bu şirniyyat növünü yemiş. Abdullah b. Cud'an Sasani sarayındakı əyanlara bu şirniyyatın neca hazırlandığı haqqında sual vermiş, onlar da baldan hazırlandığını söyləmişlər. O, "Mənə bunu hazırlayan kolani gatirin demiş" va onu özü ila Makkaya gətirmişdir. Abdullah b. Cud'an kolaya faluzac hazırlamağı amr etmiş va oz xidmətcilərinə[37] Makkada bu şirniyyatı yemak istəyən har kasi davat etməsini tapşırmış.[38]

Bəzi alimlərin Əbul-Fərəc əl-İsfahaninin "əl-Əğani" adlı asarinin tarixi hadisalara yanaşma tərzi va naql etdiyi şəxslərin etibarlılığı problemini əsas alaraq ona tarixi bir manba kimi ehtiyatla yanaşmanın daha dogru olacağını qeyd etməsinə[39] baxmayaraq, onun faluzac ila alaqadar naql etdiyi bilgi başqa manbalar tərəfindən da dəstəklənir.

Hicri beşinci (miladi on birinci) asrda yaşamış dilçi alimlərdən Saalibi (v.429/1038) "Fiqhul-Luğa"[40] adlı asarinda "fəluzəc" sözünün etimologiya baxımından Fars mənşəli[41] olduğunu qeyd edarak İsfaninin naql etdiyi tarixi bilgini təsdiq edir. Digar tarafdan özündən awal yazılmış bir çox lüğəti görmə imkanını alda edan Zabidi (v. 120511790) "Tacul-Ərus" adli asarinda "fəluzəc"ın ərəbləşmiş fars mənşəli kalma olduğunu, Fars dilinda "fəluzeh" (فالوذه), ərəbləşdiyində isə kalmanin son harfi "ه""nin "ج"e çevrildiyini və (فالوذج) surətində oxunduğunu yazır.[42]

---

[35] Cavad Əli, "əl-Mufassal", Beyrut 1968, IV, 97.
36 Bəlazuri, "Ənsabul-əşraf", Qahirə 1959, I, 180.

[37] İbn Həbibin verdiyi məlumata görə Abdullah b. Cud`anın Əbu Sufyan b. Abdul-Əsəd və Əbu Kuhafə adlı Məkkəliləri onun süfrəsinə davat etməkdə məsuliyyət daşıyan iki xidmətcisi var idi. (Ibn Həbib, e.ə., s.371)

[38] Əbul-Fərəc əl-İsfahani, "əl-Əğani", Beyrut 1927, VIII, 329-330.

[39] Hulûsi Kılıç, "Ebûl-Ferec el-İsfahânî" maddasi, *DİA*, X, 317.

[40] Saalibi, bu əsərini özündən əvvəl yaşamış İbn Şümeyl (v.150/820), Sibəveyh (v.161/779), Xəlil b. Əhməd (v. 1741 791), Kisai (v.179/806), İbnul-Kəlbi (v.204/820), İbnul-Ərəbi (v.232/ 848), əl-Mübərrəd (v.285/898) ve İbn Cinî (v.392/1002) kimi dilçi alimlərin əsərlərindən istifadə edərək meydana gətirmişdir. (Saalibi, "Fiqhul-Luğa", Beyrut 1985, s. 13-27.)

41 Saalibi, "Fiqhul-Luğa", s.317.

[42] Zəbidi, "Tacul-Ərus", Beyrut 1975, IX, 454.

Beləliklə, ham Makka va Qureyş tarixi ila alaqadar qalama alınmış əsərlərdəki tarixi faktlar ham da, dilçi alimlərin naql ettikləri bilgilara əsaslanaraq "fəluzəc" adlı şirniyyat növünün Islam gəlmədən awal Makka şəhərində tanındığını soylamak miimkiindur. Aynca, tarixi manbalar biza Makkanin an comard şəxslərindən biri sayılan Abdullah b. Cud`anın faluzaca ilk dafa Sasanilarda rastladğı va onu oz olkasina gatirdiyini iddia etmak imkanı verir. Faluzac hadisinda movcud olan va İbn Abbasa nisbat edilan "Faluzaci ilk dafa belə eşitdik" va hz. Peygambara aid edilan "Faluzac nadir?" ifadalarinin haqiqati aks etdirmadiyini va tarixi faktlarla tazad təşkil etdiyini qeyd etmak mümkündür. Yani hədis matn baxımından uydurma hesab edilir.

Nəticə etibarila Isnad ilk manba kimi hədis rəvayətinin ayrılmaz hissəsidir. Lakin xüsusilə mübahisəli va uydurma sayilan hadislari təhlil edarkan yalnız isnadla kifayatlanib, matni araşdırmamaq hadislarin anlaşılmasında bazi çətinliklər toradir. "İnək atinda xastalik vardir" va "fəluzəc" niimunalarindan da aydın olduğu kimi hədis xaricindəki tarix, adabiyyat, bəşəri təcrübə va s. kimi manbalar bazi hadislarin daha yaxşı başa düşülməsi üçün köməkçi vasita rolunu oynayir.

## ƏDƏBİYYAT

Ahmet Yucel, "Hadis Istılahlarının Doğuşu ve Gelişimi" Istanbul 1996.
Albani, "əs-Silsilətus-Sahiha" Riyad 1996.
Bəlazuri, "Ənsabul-əşraf", Qahira 1959
Buxari, "al-Camius-Sahih, İstanbul 1979.
Cavad Əli, "əl-Mufassal fi tarixil-Ərəb qablal-Islam", Beyrut 1968
Əbul-Fərəc al-Isfahani, "əl-Əğani", Beyrut 1927
al-Fakihi, "Əxbaru Makka", Makka 1986
al-Xatib, "Şərəfu Əshabil-hədis" Ankara 1972.
al-Xatib, "əl-Kifayə fi ilrnir-rivaya", Qahira (t.y.)
Hakim an-Nisaburi, al-Mustadrak aləs-Sahiheyn, Haydarabad 1915
İbn Əbu Asim, "əl-Əvali" Beyrut 1987
İbn Həbib, "al-Munammaq", Beyrut 1985
İbn Həcər "Təhzibut-Təhzib", Beyrut 1991,

İbn Həmzə, əl-Bəyan vat-Tarif fi asbabi vürudil-hadisiş-şərif, Qahira 1973

İbn Maca, "əs-Sünən" Riyad 1984.

İbnul-Cevzi, Kitabul-mevzuat minə'l-əhâdîsi'l-merfû'ât, Riyad, 1997

İbnul-Cəvzi, "al-Mavzuat", Riyad 1997

Qəzzali "əs-Sünnə an-nabaviyya", Qahira 1984.

Mizzi, "Təhzibul-Kəmal fi əsmair-rical" Beyrut 1985

Müslim, "əl-Camius-Səhih" al-Qahira 1955.

Salahattin Polat, 'Wadis Araştırmaları", İstanbul 2003

Saalibi, "Fiqhul-Luğa", Beyrut 1985,

Suyuti, "əl-Ləalil-Məsnua", Misir, (t.y.)

Suyûtî, əl-Ləâli'l-masnûa fî əhâdîsi'l-mevdû'a, Misir (t.y)

Tabarani, "əl-Mu'cəmul-Kəbir", Beyrut 1984.

Tabarani, "Müsnəduş-Şamiyyin", Beyrut 1989

Zabidi, "Tacul-Ərus", Beyrut 1975

Zahabi, "Mizanul-i'tidal fi nəqdir-rical", Beyrut 1995

Zarkegi, "əl-İcabə li İradi Mə'stədrəkəthu Aişə alas-Sahaba" Beyrut 1970

## RESUME

There is no doubt that isnad is an important part of hadith. Islamic scholars have profited by istad during centuries as a source of significant benefit of hadith. However, the matter of different opinions about the existence of disputed *ravis*, turns the importance of isnad into a subject of discussion. The discussion of isnad's value as a source, makes the investigation of hadith's text necessary. Though hadith's text has to be analyzed by taking into consideration the importance of Arabic literature (especially Arabic poetry), Prophet Muhammad's life (sira), the chronology of events occurred in 7'' century in Arabian Peninsula, the Arab customs etc.

## РЕЗЬЮМЕ

Иснад является важнейщей частью хадиса. Исламские ученые в течение многих столетий пользовались иснадом как основным источником хадисов. Однако, существование различных мнений о спорных рави, превращает иснад как источника хадисов в предмет дискуссий. Обсуждение ценности иснада как источника, делает необходимым анализ хадиса с точки зрения текста. Текст хадиса должен исследоваться посредством основных источников как арабская литература (особенно арабская поэзия), жизнь Пророка Мухаммэда, хронология событий произошедщих в Аравийском полуострове в VII веке нашей эры, арабская традиция и т.д.